№ 259 ISSN 1027-3875 15 dekabr 2008

KHAZAR VIEW

XƏZƏR XƏBƏR



ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU

www.khazar.org

ELMİ-KÜTLƏVİ,
BƏDİİ-PUBLİSİSTİK
TOPLU

1995-ci ilin
yanvarından ayda 2 dəfə çıxır

Təsisçi:
XƏZƏR UNİVERSİTƏSİ

Baş redaktor:
Hamlet İSAXANLI

Baş redaktor müavini:
Əlirza BALAYEV

Redaksiya heyəti:
Camal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Cəmil HƏSƏNLİ
Bəhlul ABDULLA
Nizami CƏFƏROV
Əfqan ABDULLAYEV
İsmət ƏHMƏDOV

Rəssam:
Rafiq ƏBDÜLRƏHİMOV

Kompüter tərtibatçısı:
Əminə M.Rzaqızı
Fotomüxbir:
Xeyrulla HACƏLİYEV

Ünvanımız:
Bakı, Məhsəti küçəsi 11,
("Neftçilər" metrosunun yanı)
Faks: 498-93-79
Telefon: 421-79-16
421-10-93

Şəhadətnamə: 255
İndeks: 67178
Sifariş: 190
Tiraj: 3000

Müəlliflərlə
redaksiyanın mövqeyi
üst-üstə düşməyə bilər
Əlyazmalar geri qaytarılmır
Xəzər Universitəsi
mətbəəsində çap edilmişdir

SCIENTIFIC-POPULAR
LITERARY-PUBLICISTIC
COLLECTION

It has been publishing twice
a month since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Alirza BALAYEV

Editorial member:
Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Jamil HASANLI
Bahlul ABDULLA
Nizami JAFAROV
Afgan ABDULLAYEV
İsmat AHMADOV

Design by:
Rafig ABDULRAHIMOV

Computer graphics:
Amina M. Rzaqizi
Photoreporter:
Kheyrulla HACALIYEV

Address:
11 Mahsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93

Certificate: 255
Index: 67178
Order: 190
Copies: 3000

The opinions of authors
and editors
could be independent
Manuscripts are not returned
Published by
Khazar University Press


OXUYUN
Bu nömrədə



BİRİNCİ KURS TƏLƏBƏLƏRİ İLƏ GÖRÜŞ 6



"AZƏRBAYCAN SEVGİ POEZİYASI" 16



WORLD SECURITY NETWORK
REPORTING FROM MOSCOW IN RUSSIA 18



Hafiz Hacıxalıl
NECƏ CAVAB VERƏCƏYIK BABALARIN RUHUNA BIZ?! 27



Seymur Elsevər
TƏBİƏTLƏ SƏNƏTİN HARMONİYASI 30

Satirik qələmlə
Günel Mustafayeva
BİZİM YOLDA... 32

USAQ DÜNYASI

36

UNİVERSİTƏ XƏBƏRLƏRİ

POLITICAL SCIENCE STUDENTS OF KHAZAR UNIVERSITY AMONG THE WINNERS



Khazar University Political Science students Isgandar Aghayev, Fakhraddin Abdullayev, Emin Rustamov and Bakhtiyar Aslanov took the **second place** in the competition organized by the Ministry of Youth and Sports among 16 universities of Azerbaijan Republic on November 15. They were awarded with a diploma signed by Minister of Youth and Sports of Azerbaijan Republic Azad Rahimov.

US PRESIDENT'S SPECIAL ENVOY AT KHAZAR UNIVERSITY





Special Envoy of US President in the Organization of the Islamic Conference Sada Cumber visited Khazar University and participated at a round-table discussion on "Contemporary Islam in Azerbaijan" organized by the Institute of Politics on November 22.

Founder and President of Khazar University Prof. Hamlet Isaxanli welcomed the guest and introduced him to the participants. Mr. Sada Cumber had a speech on the topic followed by intensive discussion. Participants asked questions and made comments on the role of contemporary Islam in Azerbaijan and in the whole world.

Prof. Hamlet Isaxanli thanked Mr. Cumber and participants for interesing discussion.

MÜASİR TƏHSİL VƏ PROBLEMLƏRİ BARƏDƏ MÜZAKİRƏ

Noyabrın 25-də Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə mütəxəssisi Richard Hopperi qəbul etdi. Görüşdə dünyada və Azərbaycanda müasir təhsil və problemləri barəsində müzakirə aparıldı.

"TANIMADIĞIMIZ TANIŞLAR" RUBRİKASINDA MÜSAHİBƏ

Noyabrın 29-30-da ATV kanalının "Tanımadığımız tanışlar" rubrikasında Xəzər Universitəsinin qurucusu, professor Hamlet İsaxanlı ilə onun həyat və yaradıcılığı haqqında müsahibə efirə verildi. Verilişdə Hamlet İsaxanlını yaxından tanıyan bir sıra şəxslər onunla bağlı xoş və məzmunlu fikirlərini bölüşdürdülər.

NƏŞRLƏRİN ELEKTRON VERSİYASI HAQQINDA MÜŞAVİRƏ

Dekabrın 5-də Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlının sədrliyi ilə keçən müşavirədə Xəzər Universitəsində nəşr olunan hər növ materialların elektron versiyasının saxlanması və elektron məkanda yerləşdirilməsi, həmçinin universitə daxilində sənədlərin hazırlanması və göndərilməsinin vahid qaydasının müəyyənləşdirilməsi haqqında məsələlər müzakirə olunmuşdur. İşçi qrupu yaradılaraq, müvafiq sərəncamın hazırlanması qərara alınmışdır.

QALXIN AYAĞA, UŞAQLAR!

Xeyirxahlıq dədə-babadan bizə qalan mənəvi sərvətdir. Biz, ümumən, xeyirxah xalqıq. Ən çətin anlarda insanlar bir-birinə əl uzadır, köməklik göstərirlər. Bütün bunlar təmənnasız edilir. Bu gün yüzlərlə xəstə ictimai təşkilatların, ayrı-ayrı imkanlı şəxslərin və fərdi insanların köməkliyi nəticəsində müalicə olunur, həyata qaytarılır, onlara ikinci həyat bəxş edilir.

Bu günlərdə gənc tələbə yoldaşlarımızın xeyirxahlığının şahidi olduq. Bizim universitənin tələbələri Həsənova Vəfa, Həsənov Rüfət, Fərzəliyev Ceyhun və Babayev Emil avtomobil qəzası nəticəsində aldıqları müxtəlif bədən xəsarəti ilə xəstəxanaya çatdırılmışlar. Bu qəza nəticəsində Xəzər Universitəsinin 4-cü kurs tələbələri Ceyhun Fərzəliyevə böyük miqdarda qan, Rüfət Həsənovun aldığı zədə nəticəsində müalicəsinə böyük məbləğdə pul vəsaiti və həmçinin qan lazım idi. Bu hadisəni eşidən universitənin tələbələri Rüfətə və Ceyhuna kömək məqsədilə qanvermə kampaniyası təşkil etdilər.

Bu kampaniyaya nəinki Xəzər Universitəsinin tələbələri, hətta İqtisadiyyat Universitetinin, BDU-nun, ABU-nun, Memarlıq və İnşaat Universitetinin, Qafqaz Universitetinin tələbələri də qoşuldular. Qanvermə kampaniyasında 120-dən çox tələbə və valideynlər iştirak etdilər. Xəzər Universitəsində təhsil alan tələbələrin valideynləri Rüfət Həsənovun cərrahiyyə əməliyyatına lazım olan məbləği ödəməkdə köməklik göstərdilər.



Biz uşaqların tezliklə sağalmağını arzu edir, Ceyhun Fərzəliyevin və Rüfət Həsənovun müalicəsi üçün köməkliyini əsirgəməyən hər kəsə, bütün tələbələrə və onların valideynlərinə öz minnətdarlığımızı bildiririk. Arzu edirik ki, tələbə həmrəyliyimiz başqa nəcib işlərdə də davam etsin.

Nurlan Məmmədrzayev,
Kənan Musayev,
İqtisadiyyat və Menecment fakültəsinin tələbələri

BİRİNCİ KURS TƏLƏBƏLƏRİ İLƏ GÖRÜŞ

Jurnalımızın ötən nömrəsində qısa xəbərdə bildirdiyimiz kimi, noyabrın 27-də Xəzər Universitəsinin "Dünya" konsert salonunda universitənin qurucusu və rektoru, professor Hamlet İsaxanlının birinci kurs tələbələri ilə hər tədris ilinin əvvəlində keçirilən ənənəvi görüşü olmuşdur. Görüşdən, vəd etdiyimiz kimi, geniş məlumatı təqdim edirik.

Mərasimin aparıcıları – Humanitar və sosial elmlər fakültəsinin ikinci kurs tələbələri Elnarə Əliyeva və Orxan Abdullayev görüşü açaraq, tələbələrin öz rektorlarını daha yaxından tanımaları üçün ənənəyə görə əvvəlcə "Hamlet İsaxanlı kimdir?" sualına cavabları onların nəzərinə çatdırdılar:



- **Müasir dünyanın ən məşhur elm-təhsil təşkilatçılarından biri**
- **Dünyada tanınmış riyaziyyatçı alim**
- **Humanitar və sosial elmlər üzrə görkəmli tədqiqatçı**
- **Şerləri dünyanın bir çox dillərinə tərcümə olunmuş istedadlı şair**
- **Poetik tərcümələr müəllifi**
- **Yüzlərlə məqalənin, çoxsaylı monoqrafiya və dərsliklərin müəllifi**
- **Bir sıra elmi və kütləvi jurnalların, məcmuə, monoqrafiya, dərslik və lüğətlərin redaktoru**
- **Beynəlxalq aləmdə Azərbaycanı tanıtdıran**
- **Azərbaycan lobbisinin yaranması yolunda əməyini əsirgəməyən vətəndaş**
- **Azərbaycan mədəniyyətinin inkişafına və təbliğinə töhfələr verən şəxs**
- **Xeyriyyəçi və insani keyfiyyətləri ilə ümumxalq hörməti qazanan ziyalı**
- **Böyük maarifçi**

Sonra aparıcılar tələbələri Hamlet İsaxanlının həyat və fəaliyyətinin əsas məqamları ilə tanış etdilər:

Hamlet Abdulla oğlu İsayev (İsaxanlı) 1948-ci il martın 1-də ulu Borçalı ma-

halınm Qarayazı bölgəsində - Gürcüstan Respublikası Qardabani rayonunun Kosalı kəndində dünyaya göz açıb.

1965-ci ildə orta məktəbi **Qızıl medalla** bitirib.

1970-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) mexanika-riyaziyyat fakültəsini **Fərqlənmə diplomu** ilə başa vurub.

1970-1973-cü illərdə M. Lomonosov adına Moskva Dövlət Universitetinin aspiranturasında təhsil alıb.

1973-cü ildə **fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsinə** layiq görülüb. Azərbaycanın ən gənc və istedadlı alimlərindən biri kimi qısa zamanda keçmiş Sovet İttifaqından kənarda da yaxşı tanınıb.

1973-1988-ci illərdə Azərbaycan Elmlər Akademiyası Riyaziyyat və Mexanika İnstitutunda, Moskva Dövlət Universitetində, Azərbaycan Dövlət Universitetində və SSRİ EA V.A.Steklov adına Riyaziyyat İnstitutunda ardıcıl tədqiqatlar aparıb, **riyaziyyatın bir çox sahələrində fundamental nəticələr** alıb.

1983-cü ildə Moskvada, riyaziyyatın Məkkəsi adlanan SSRİ EA V.A.Steklov adına Riyaziyyat İnstitutunda doktorluq dissertasiyası müdafiə edib, **fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsinə** layiq görülüb.

1990-1991-ci illərdə Azərbaycan Respublikası edib, işləyib, özünü geniş diapozonlu riyaziyyatçı alim, sosial və humanitar elmlər, təhsil tarixi və nəzəriyyəsi üzrə görkəmli mütəxəssis kimi təsdiqləyib.

Çoxsaylı beynəlxalq fondların, təşkilatların, akademiyaların üzvü və ya idarə heyəti üzvüdür.

2005-ci ilin mayında yeni



Nazirlər Kabinetinin sərəncamına əsasən Bakıda ingilisdilli universitetin yaradılması üçün hazırlıq işləri aparıb, **Xəzər Universitəsini təsis edib** və bu günə kimi onun rektorudur.

Müxtəlif qitələrdə 50-yə yaxın ölkədə beynəlxalq konfrans və simpoziumlarda elmi məruzələrlə çıxış

təşkil olunmuş **Azərbaycan Respublikası Prezidenti yanında Təhsil Komissiyasının üzvü** təyin edilmişdir.

Sonra aparıcılar Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlını səhnəyə dəvət etdilər. O, birinci kurs tələbələrinə müraciətlə çıxış etdi.

XƏZƏR UNİVERSİTƏSİNİN REKTORU, PROFESSOR HAMLET İSAXANLININ ÇIXIŞI



Əziz birinci kurs tələbələri! Sizinlə görüşmək mənim üçün olduqca xoşdur. Sizinlə görüşümü Xəzər Universitəsində keçirdiyim görüşlər arasında ən maraqlısı və ən vacibi hesab edirəm.

Ailənin sevimlisi kiçik uşaqlar olduğu kimi, ali məktəbin də ailəsi birinci kurs tələbələrindən başlayır, onlar burada ildən-ilə böyüyür, təhsil alır, daha sonra məzun olurlar. Onlarla görüşmək, onları dinləmək, onlarla fikir mübadiləsi aparmaq, mümkünsə, bəzi şeyləri öyrətmək olduqca vacibdir.

Sizinlə görüşməsəm, tövsiyələrimi sizə deməsəm, sözsüz ki, neçə illər sonra bunu mənə, haqlı olaraq, irad tutarsınız. Əlbəttə, bu o demək deyil ki, mən sizə ancaq nəsihət verəcəyəm, deyəcəyəm ki, o yol yox, bu yol doğrudur; hər kəs öz yolunu özü seçir - təbii ki, valideynlərindən, tanışlarından, müəllimlərindən məsləhətlər ala-ala. Amma insan özü qərar qəbul edir, özü yol seçir və onun əzabını da özü çəkir, ləzzətini də elə özü görür.

İmkanları bilmək üçün insan təhsil almalıdır

Hər birimizin həyatında bir sıra dövrlər var; bir var məktəbə qədərki dövr – biz oxuyub yazmırıq, ancaq oynamaqla məşğul oluruq. Sonra məktəb həyatı başlayır, balaca uşağın həyatı birdən-birə, kəskin surətdə dəyişir. Səhər durub məktəbə getməlidir, günorta məktəbdən qayıtmalıdır, sonra tapşırıqlar etməlidir, çox fərqli bir həyata başlayır və sonra bu, ömrü boyu davam eləyir. Çünki, insan cəmiyyətdə mühüm yer tutmaq üçün, öz mənəvi və maddi həyatını gözəl qurmaq üçün, gələcəyini müəyyən etmək uçun uzun müddət çalışır, əziyyət çəkir. Çünki müasir dünya o qədər mürəkkəbdir, o qədər rəngbərəngdir, o qədər imkanlar var ki, o imkanları bilmək üçün insan təhsil almalıdır. Orta məktəbdə biz daha çox çalışırıq ki, savad alaq, ali məktəbdə isə elmlərə yiyələnirik, ixtisaslı mütəxəssis olmaq istəyirik. Yəni oxumaq həyatımızda bəlkə ən əsas məşğələyə çevrilir. İnsanın bioloji tələbləri də var: nəfəs alırıq, yemək yeyirik, yeriyir, hərəkət eləyirik - amma bunlar insanın gələcəyini müəyyən edən, həyat yolunu müəyyən edən iş deyil. Onlar ancaq insanın ayaq üstə durmasını, yeriməsini təmin etmək uçun lazım gələn fiziki işlərdir; amma insan bir insan kimi, bir düşünən varlıq kimi özünü həyata hazırlayır və mənə elə gəlir ki, bu işdə hər şey mühüm dərəcədə məktəbdən və müəllimlərdən asılıdır. Düşünürəm ki, bugünkü söhbətimizi bu məsələ üzərində quraq.

Ailəmizdən şikayət etməyə ixtiyarımız yoxdur...

Həm orta məktəb, həm ali məktəb, yəni tədris ocağı və müəllimlər çox mühümdür. Amma onlar hər şeyi həll edə bilməz. Eyni məktəbdə eyni müəllimlərdən dərs alan uşaqların çox müxtəlif olmasının və müxtəlif nəticələrə gəlib çıxmasının səbəbi odur ki, işin böyük hissəsi insanın özündən asılıdır. Deməli, məktəbdən başqa, müəllimdən

başqa da gələcəyi hazırlayan çox şeylər var həyatda. Nədir bunlar? Əgər biz bunları təhlil etməsək, beş il, on il, on beş il sonra böyük səhvlər meydana çıxır və görürük ki, həyatdan həzz almalı olduğumuz hadisələrin, cəhətlərin bir qismindən məhrum olmuşuq.

Nədir bunlar? Mən istəyirəm öz uşaqlığıma, gəncliyimə nəzər salaraq sizə danışım ki, insan müəllimdən və məktəbdən başqa nələr görür və özünü necə yetişdirir. Bu - insanın özü-özünü tərbiyə etməsi, gücləndirməsi qat-qat daha vacibdir , daha mərkəzdə dayanır və bu, müəllimlə, məktəblə birbaşa əlaqəli deyildir. Məlumdur ki, yetişdiyimiz birinci ocaq ailədir, hər bir uşaq ailədə formalaşır, xüsusən kiçik yaşlarında, məktəbə qədər və məktəb dövründə ailənin güclü təsiri altında olur. Uşaq nəyin yaxşı, nəyin pis olduğunu ilk növbədə ailədəki söhbətdən, ailədəki davranışdan, ailədə verilən tərbiyədən öyrənir; öyrənir ki, bunu etmək lazımdır, onu etmək olmaz. Və müxtəlif ailələr bu məsələyə müxtəlif cür yanaşırlar, ona görə ilkin nəticə də müxtəlif cür alınır. Amma bizim ailəmizdən, müəyyən mənada, şikayət etməyə ixtiyarımız yoxdur. Nə üçün? Çünki biz ailəmizi seçmirik, valideynimizi seçmirik. Onların imkanları nədirsə, dünyagörüşləri nədirsə, özləri necədirsə, bizi də ona uyğun yetişdirməyə başlayırlar. Amma maraqlı cəhət budur ki, eyni ailədən, eyni-ata anadan çox müxtəlif tipli uşaqlar çıxır, eynilə məktəbdə olduğu kimi. Burada açıq aydın olur ki, ailədən, məktəbdən başqa bir sıra əlavə təsirlər də mühüm əhəmiyyət kəsb edir.

Kitab insanın əlindən tutur, insan ona sığınır

Məktəbdən başqa nə var həyatda? Məsələn, biz oxuyanda həyatımızda, hər halda mənim həyatımda radio var idi. Yəni məktəbdən sonra bizim dünyamıza ən çox təsir edən radio idi, o zaman yeganə olan Azərbaycan Dövlət radiosu. Televiziya artıq kəşf olunmuşdu, amma kütləvi istehsalına və kütləvi istifadəsinə başlanmamışdı. Radio isə hər yerdə var idi, biz evdə radioya qulaq asırdıq. Radio insanı həm məlumat baxımından, həm də mənəvi baxımdan zənginləşdirən bir dünya idi. Və bir də nə var idi? Kitablar! Yəni uşaq ailədə tərbiyə olunurdu, məktəbdə oxuyur, müəllimlərdən bilik, savad, tərbiyə alırdı və bir də, söylədiyim kimi, radio var idi, amma ona daim qulaq asa bilmirsən, bəzi verilişləri dinləyirsən. Və bu zaman kitab insanın əlindən tutur, əslində isə insan ona sığınır, onu həyatının bir hissəsinə çevirir. Burada isə nəyi, nə zaman oxumaq, nəyi oxumamaq, nəyin insanı həyəcanlandırdığı, ona təsir göstərdiyi kimi məsələlər ortaya çıxır.

Bəzi insanlar var ki, onlara dağlar, çaylar, göllər, meşələr, təbiətin gözəllikləri çox təsir edir, onu gözü ilə görür, onu "eşidir", hiss edir. Bu öz yerində. Amma bir də var insanın kitablara həkk olunmuş biliyi, təcrübəni mənimsəməsi. Təxminən beş min ildir insanlar müxtəlif səpkidə kitablar yazırlar, bu müddətdə dəhşətli dərəcədə böyük ədəbiyyat, yazılı miras toplanıb. Onların çox cüzi bir hissəsini biz hal-hazırda oxuya bilirik. Və məlumdur ki, insan anadan olanda oxuya bilmir, amma ailədən asılı olaraq təxminən 3-4 yaşından, ən gec də 6 yaşından oxumağa başlayır və ömrünün axırına qədər də oxuya-oxuya gedir – az və ya çox dərəcədə. İnsanı yetişdirən, insanı formalaşdıran, insanları bir-birindən çox fərqli edən, məncə, məhz bu oxumaqdır.

Mütaliəni sevənlər və elm adamları bilirlər ki, kitabların, yazıların sayı-hesabı yoxdur, bu bir dəryadır. Qədimdən yazıb-yaradan millətlər var, çinlilər, hindistanlılar, Yaxın Şərq millətləri, misirlilər, şumerlər, asiriyalılar, yunanlar, romalılar, sonra da ki müsəlman ölkələri və ilaxır. Sonra Avropa, Asiya, Amerika və s. Dünyanın bütün xalqları çox sahələrdə müxtəlif ədəbiyyat yaradıblar. Bəs biz nəyi oxuyaq? Bu suala cavabın bir tərəfi də var ki, nəyi oxumaq lazım deyil. Bu çox mühümdür. Mən, məsələn, məktəbli ikən bütün bədii ədəbiyyatı oxumaq istəyirdim, qeyri-adi dərəcədə mütaliə ehtirasım vardı. Təbii ki, mən uşaq vaxtı başqa dillərdə oxuya bilməzdim, ancaq Azərbaycan dilində oxuyurdum. Məsələn, mən sizə misallar gətirmək istəyirəm. Uşaq vaxtı nə oxuyurdum? Bu digər cəhət-

dən də maraqlıdır, çünki siz uşaq vaxtı oxuduğunuzla müqayisə edə bilərsiniz.

Biz "Koroğlu" dastanı ilə böyümüşük

Təbii ki, adam ilk oxumağa başlayanda sadə şeirlər, sadə hekayələr, sadə nağıllar oxuyur. Maraqlı Azərbaycan nağılları var, onlarda həmişə xeyir şərə qalib gəlir. Sonra yavaş-yavaş başqa xalqların nağıllarını oxuyuruq və nağıl oxumaqdan xoşumuz gəlir. Nağıldır, əfsanədir – bunlar həyatda olmayan, amma xəyaldan keçən şeylərdir, qeyri-adi hadisələr, xoş hadisələr insana çox yaxşı təsir edir. Nağıllar qeyri-adidir, gözəldir. Nağıllardan sonra başlayırıq dastanları oxumağa. Təbii ki, bizim dövrümüzdə hər bir uşaq mütləq "Koroğlu" dastanını oxuyurdu. Mən bilmirəm indi necədir? Biz uşaq vaxtı "Koroğlu" dastanı ilə böyümüşük və öz timsalımdan bilirəm ki, "Koroğlu" dastanı o vaxtlar bizi doğrudan da həyata hazırlayırdı və düzgün şəkildə hazırlayırdı. Dastana görə, əvvəllər insanlar bir-birilə üz-üzə gələr, qılınc-qalxan ilə vuruşardılar, kim güclüdür qalib gələrdi. Yəni bu savaşın özündə müəyyən ədalət var idi ki, iki vuruşandan güclü olan qalib gəlir, zəif vurulur, uduzur. Lakin tüfəng icad olundu. Uzaqdan hər bir adam digərini məhv edə bilər - gücünü sınamadan, güləşmədən, üz-üzə vuruşmadan. Dastana görə, bu ədalətsizlikdir - "tüfəng çıxdı, mərdlik getdi, ay haray!"

"Koroğlu" dastanını oxuyanda xoşumuza gələn məhz o deyildi ki, Koroğlu qılıncı çəkdi, bu tərəfdən vurdu, o tərəfdən çıxdı və qoşunu məhv elədi. O, bizə görə ədaləti təmsil edirdi. Bu maraqlı bir şeydir, amma bir də görürdük ki, Koroğluya bir məktub gəlib, bir paşanın qızından. Koroğlu bu boyda Çənlibelini, bu boyda yurdunu qoydu, mindi atına getdi ki, o qız məni çağırıb, getməsəm olmaz. Getdi, vuruşdu, gətirdi gəldi. Əsəri maraqlı, canlı edən bir gözəl xüsusiyyət də bu idi. "Koroğlu"dan başqa sevdiyimiz digər dastanlar da var idi: mənim ən çox sevdiyim "Əsli və Kərəm" və "Aşıq Qərib". "Dədə Qorqud"u o vaxt biz oxumamışıq, "Dədə Qorqud" yox idi. Mən onu sonralar tapıb yavaş-yavaş oxumuşam. İndi "Dədə Qorqud" daha çox təbliğ olunur.

Uşaq məktəbin lazımsız bildiyi kitabların, ən azı, bir qismini oxumalıdır

Sonra biz birinci növbədə Azərbaycanın yazıçılarını, şairlərini oxumağa çalışırdıq. Məsələn, bizim Süleyman Sani Axundov adlı məşhur yazıçımızın "Qorxulu nağıllar"ı və məşhur "Qaraca qız" hekayəsi var. Kim oxuyub onu? Yəqin çoxunuz oxuyubsunuz. Klassik Azərbaycan hekayəsidir. Onun daha az tanınan, lakin çox təsiredici "Nurəddin" adlı bir hekayəsi də var idi. Bir az sonra biz Cəfər Cabbarlının bəzi əsərlərini oxumağa başladıq. Onun "Aslan və Fərhad" adlı bir hekayəsi var. Uşaq onu oxuyanda mütləq ağlamalı idi. Oğlansan, qızsan, yaşın 10-dur, 12-dir, 16-dır – fərqi yox idi. Bu, romantik ədəbiyyat nümunəsi idi. Bir qədər sonra uşaqlar sevgi əsərləri, sevgidən bəhs edən yazılar oxuyurdu. Məktəbdə bu həmişə problem olub. Məktəb belə hesab edirdi ki, yaşa uyğun oxumaq lazımdır, sevgi əsərləri məktəb tərbiyə üsuluna uyğun gəlmir. Yaşa uyğun oxumaq isə o idi ki, nağıl oxu, dastan oxu, qəhrəmanlıq hekayələri oxu, amma orada sevgi olmasın. Amma əsərlərin çoxu sevgi üzərində yazılırdı və uşaqlar onu da oxumaq istəyirdilər.

Bir misal da gətirmək istəyirəm. Mən beşinci sinifdə oxuyanda, çox yaxşı bir ədəbiyyat müəllimimiz var idi (beşinci sinifdən sonra biz ədəbiyyat müəllimimizin təsiri ilə deyil, özümüz ədəbiyyat oxumuşuq). Yanvarda biz tətilə buraxılanda həmin müəllim dedi ki, hansı kitabları oxusanız, adını, müəllifini, qısa məzmununu və münasibətinizi yazıb mənə gətirərsiniz. Dərs olmayanda, o cümlədən, həmin yanvarda hər gün bir böyük və ya bir neçə kiçik kitab oxumaq olardı. Mən də bir çox Azərbaycan yazıçılarının əsərlərini və dünya ədəbiyyatından oxuyurdum. Xüsusilə, Teodor Drayzer, məşhur Amerika yazıçısı olub, "Dahi" adlı böyük kitabı vardı. Hardasa bəlkə 800-900 səhifə idi və mən tətildə o kita-

bı da oxumuşdum. Müəllim siyahıda bu romanı görəndə çox təəccüblə və sanki təəssüflə üzümə baxıb dedi: bunu heç ali məktəbin birinci kurslarında da oxumağa tövsiyə etmirlər, uşaq ədəbiyyatı deyil, uşağın tərbiyəsini pozur. Amma mən çox ləzzət almışdım və bu mənim indiyə qədər oxuduğum ən maraqlı kitablardan biri idi. Nəyə görə? Çünki orada çox istedadlı bir rəssamın həyatından danışılırdı. İstedadlı adamın həyatı maraqlı olur, yaradıcılıq ehtirası, uğur və uğursuzluqları olur, onu çox istəyirlər və qızlar onun yanına çox gəlib-gedirdi. Onun da qızlardan xoşu gəlir. Rəssamın çətinlikləri olur, kasıb olur, varlanır və ilaxır, amma bununla bərabər də onun ömrü boyu sevgi macəraları olur. Bunu Drayzer çox ustalıqla təsvir edib. Onu oxuyan da ağlına pis heç nə gətirmir, sevgidə nə günah var, sadəcə, bu hiss-həyəcan oxucunun oxuduqca sanki canına hopur. Sonra o müəllim atama demişdi ki, uşağa nəzarət edin, lazımsız şeylər oxuyur. Və mən hesab edirəm ki, uşaq məktəbin lazımsız bildiyi şeyləri, ən azı onların bir qismini oxumalıdır.

İnsan gərək nəyi oxumaq lazım gəldiyini müəyyən etsin

Mən məktəbin lazımlı hesab etdiyi bəzi şeyləri oxumuşam və peşman olmuşam. İndi deyərlər ki, məktəb haqqında niyə belə danışıram? (Burada məktəb müdiriyyəti və pedaqoqlar da var). Biz uşaq deyilik, fikir mübadiləsi edirik və səmimi danışırıq. Məktəbdə bizə siyahı verirdilər ki, bu kitabları oxuyun. Bizim görkəmli bir yazıçımız olub, Süleyman Rəhimov. Bilirsinizmi onun haqqında? S. Rəhimovun maraqlı kiçik hekayələri var, povestləri var, oxumuşam. Məsələn, "Mehman" adlı maraqlı və ideyalı povesti var. Həmin povest ekranlaşdırılıb. Baş qadın roluna Flora Kərimova çəkilib. Çox maraqlı ideyası var bu povestin. Amma sonra Süleyman Rəhimovun üçcildlik "Şamo" adlı romanını mən, kitabı bu qədər sevən adam, nə qədər istədimsə də, sonadək oxuya bilmədim. Yaxud, onun ikicildlik "Ağbulaq dağlarında" əsərini oxuyandan sonra vaxtıma görə təəssüf hissi keçirdim.

Drayzerin iki səhifəlik yazısını oxuyanda insan nə qədər düşünürdü. Gözünün qabağına hər şey gətirirsən, eləcə də başqa əsərləri saya bilərəm. Fikirləşirəm ki, əgər mənə nəyi oxumaq, nəyi oxumamaq haqqında yol göstərən olsaydı, çox gözəl olardı. Ona görə ki, insan gərək nəyi oxumaq lazımdırsa, onu müəyyən eləsin, çünki çox böyük sayda əsərlər var, onların böyük qismini biz oxumuruq.

Dünya ədəbiyyatı ilə yanaşı, tarixi və fəlsəfi əsərləri də oxumaq lazımdır

Orta məktəbdə dünya ədəbiyyatını çox oxumurlar. Mən əlimə keçəni azərbaycancaya tərcümədə oxumuşdum. Xarici ədəbiyyatı universitetə gələndə, riyaziyyat fakültəsinin tələbəsi olanda daha çox, daha sistemli oxuyurdum. Və gördüm ki, daha yaxşı başa düşdüm ki, dünyada hansı əsərləri oxumaq lazım imiş. Və ondan sonra oxuduqlarımın hamısının 90 faizi, demək olar ki, rusca olub. Çünki rus dilinə bütün dünya ədəbiyyatı tərcümə olunub, üstəlik, rus ədəbiyyatını orijinalda oxudum. "Tixiy Don" əsəri rusca və azərbaycanca mənə fərqli görünmüşdü. Demək olar ki, o vaxt mən Azərbaycan ədəbiyyatını oxuyub qurtarmışdım (klassik ədəbiyyatı və müasir ədəbiyyatın əsas hissəsini). Azərbaycan ədəbiyyatını oxuyub qurtarmaq mümkün idi. Amma dünya ədəbiyyatı çox genişdir.

Ali məktəbdə oxuyarkən görürsən ki, bədii ədəbiyyatdan başqa, dünyanı bir az da dərindən başa düşməyə kömək edən tarixi əsərlər var. Bir az da keçəndən sonra görürsən ki, başqa maraqlı humanitar elmlər də var - fəlsəfə, psixologiya... Yəni bu insanlar necə düşünürlər, insanı insan edən nədir? Dünyada hansı fikir cərəyanları olub və var? Bunları oxumaq üçün insan bir balaca həyat təcrübəsi yığmalıdır, dünyanı başa düşməlidir ki, bunları oxumaq bir az maraqlı olsun. Onları oxuyandan sonra daha bir dəfə görürsən ki, dünyanı bir az da dərindən başa düşmək lazımdır. Oxuduqca daha yaxşı görürsən və

bilirsən ki, nəyi oxumaq lazımdır.

Dünyanın humanitar və təbiət elmləri tərəfdən iki görünüşü var

Bir cəhəti də deyim, bilirsiniz ki, elmlər çox müxtəlifdir. Bir var təbiət elmləri və ya dəqiq elmlər - riyaziyyat, fizika, kimya, biologiya, geologiya və ilaxır. O biri tərəfdə isə humanitar və sosial elmlər durur. Yəni ədəbiyyat, tarix, fəlsəfə, psixologiya, antropologiya, dilçilik, sosiologiya, coğrafiya və s. İnsan iki yolun arasında qala bilər, ikisi də maraqlıdır. Nə edim? Mütləq gərək hər ikisindən müəyyən əsasları biləsən. Məhz buna görə biz universitəmizdə belə bir sistem yaratmışıq ki, hər bir tələbə, fakültəsindən asılı olmayaraq, gərək təbiət elmlərindən də dərs götürə, humanitar, sosial (ictimai) elmlərdən də... Və bir xarici dil öyrənə. Çünki insanın dünyası bu cür formalaşır. Burda çətin olan odur ki, humanitar sahə ilə məşğul olanlar təbiət elmlərini sonralar öyrənə bilmirlər. Yəni ədəbiyyatı yaxşı bilənlər fizika, astronomiya, kimya və s. dəqiq elmləri, daha doğrusu, onların yüksək, ali qismini öyrənə bilmirlər. Çünki o elmlərin xüsusi dili var, xüsusi metodları var. Amma gərək, heç olmasa, sadə dildə yazılan ədəbiyyatı oxusunlar. Dəqiq elmləri oxuyan insanların isə bir üstünlüyü var. Onlar dünyanın o tərəfdən də görünüşünü, sirlərini, nəzəriyyələrini bilirlər və bu tərəfi, humanitar sahəni oxumaq və öyrənmək də onlar üçün çətin deyil. Üstəlik, onlar humanitar və sosial sahələr üzrə sadə dildə yazılmış kitabı oxumaq istəmirlər. Çünki onlar həmişə ciddi elmlərlə məşğul olublar və istəyirlər ki, məsələn, fəlsəfəni, tarixi ciddi qaynaqlardan oxusunlar, onu dərk etsinlər, başqalarının fikri ilə deyil, öz düşüncə və təhlillərindən keçirdikləri bilik, ideya və metodları mənimsəsinlər. Yaradıcı düşünsünlər. Dünyada buna bəzən "iki mədəniyyət" deyirlər və müzakirə olunan bir mövzudur. Guya iki tip insanlar olur - dəqiq elmlər və humanitar sahə insanları və onlar bir-birindən çox fərqlidir. Qəti surətdə belə deyil. Digər sahəni onda yad hesab etmək olar ki, humanitar elmlə məşğul olanın dünyada başqa heç nədən, dünya və kainatdan, canlı və cansız aləmdən xəbəri olmasın, təbiət elmləri ilə məşğul olanların da ədəbiyyata, tarixə, fəlsəfəyə və s. həvəsi olmasın, oturub düsturunu yazsın, təcrübəsini aparsın və onunla da kifayətlənsin. Belə şeylər də olur, elmdə, həyatda, amma az olur. Əslində, onların ikisi də eyni mədəniyyəti müxtəlif tərəfdən bilir, eyni mədəniyyətə müxtəlif tərəfdən baxır.

Elə kitablar var ki, onları 100 dəfə də oxumaq olar

Mən öz-özümə həmişə fikirləşirəm ki, hər kəs "Robinzon Kruzo"nu oxumalıdır. Bəzisi deyir bu gənclər üçündür, amma əslində belə deyil. Çünki insan istənilən yaşında bu cür kitabları oxuyanda onların çox dərin və çox gözəl olduğu qənaətinə gəlir. İnsan tək qalanda, uzun illər təbiətlə üz-üzə qalanda göstərməlidir ki, insan kimi yaşaya bilir, yoxsa yox? Bu bir problemdir və "Robinzon Kruzo"da gözəl həllini tapıb. İnsan belə kitabları həmişə dönə-dönə oxuyur. Əgər onu 10 yaşında oxuyubsa, qayıdıb 20 yaşında təkrarən oxuyanda bir cür qavrayır, 30 yaşında başqa cür nəticə çıxarır.

O cür əsərlər çoxdur. Məsələn, mənim dünya ədəbiyyatında ən çox sevdiyim əsərlərdən biri Viktor Hüqonun "Səfillər"idir. Viktor Hüqo məşhur fransız yazıçısıdır, romantik ədəbiyyatın nümayəndəsidir.

Mən bilmirəm ki, nə dərəcədə o kitabı oxumusunuz. Mən onu – 3 cildlik böyük kitabdır – orta məktəbdə oxumuşam və bəlkə bu gün də əzbər yadımdadır. Mən o kitabı o qədər sevmişəm, o qədər dəfələrlə öyrənmişəm ki... Uşaq vaxtı oxuduğum o kitablar bu gün də məndədir və ən azı hər yay onu bir də yenidən vərəqləyirəm. Çünki o mənə dərin hisslər bəxş edib, çox bilik verib və çox kömək edibdir. Həyatda elə kitablar var ki, onları 100 dəfə də oxumaq olar. Elə kitablar

var ki, onları heç vaxt oxumaq lazım deyil. Amma elə kitablar var ki oxuduqca təzədən oxuyursan və yeni hisslərə qapılırsan.

Həyatın bir mənası, məqsədi var - insan xoşbəxt olmaq istəyir

Mən arzu edirəm ki, bugünkü görüşümüzün balaca bir nəticəsi olsun və siz düşünəsiniz ki, siz indiyə qədər nə oxumusunuz, bundan nə ləzzət almısınız, nəyi oxumamısınız, oxuduğunuz kitablara dönüb bir də baxasınız. Onda mən əmin olaram ki, bugünkü görüşümüz bir nəticə verəcək. Hər insanın həyatının bir və yalnız bir mənası, məqsədi var – insan xoşbəxt olmaq istəyir. Uşaq, böyük, gənc, qoca – fərqi yoxdur. Həyatın məqsədi xoşbəxt olmaqdır. Xoşbəxt olmaq üçün insan özünün xoşbəxtliyini hiss etməlidir. Bunu onun hissi, həyəcanı, duyğuları deməlidir. Ola bilər ki, insanın bu binanın içi qədər qızılı, daş-qaşı, sərvəti olar, ancaq özünü xoşbəxt hiss etməz. Yəni insan padşah olub, bədbəxt ola bilər. Ya da əksinə. İnsan sadə bir çoban olub, xoşbəxt ola bilər. Amma deyim ki, oxuyan, təhsil alan, qurub yaradan insanın xoşbəxtliyə çatması ehtimalı çox böyükdür və burada mütaliənin rolunu danmaq olmaz. Oxumaq insanı mütəxəssis edir, insan həkim olur, mühəndis olur, alim, iqtisadçı olur və ixtiralar edir. İnsan oxumaqla dünyanı, insanı daha dərindən hiss edir. Daha həssas, daha sadə və daha dərin olur. Çox uğurlar, xoşbəxtliyə gedən cığırlar var və onların hamısının əsasında təhsil durur, oxumaq, geniş mənada oxumaq durur.

Xəyal gücü işıq sürətindən də güclüdür, sürətlidir

Maraq dairəsindən asılı olaraq, dəqiq və qeyri-dəqiq deyilən, humanitar ədəbiyyatlarla dünyanı yaxşı görə bilirsən. İnsan dünyanı nə qədər yaxşı görə bilirsə, dünyanın gözəlliyini nə qədər yaxşı duyursa, o dərəcədə xoşbəxtdir. Sizə bir misal deyim. Mən Moskva Dövlət Universitetinin aspiranturasında oxuyanda eynək taxırdım. Bir dəfə mənimlə oxuyan bir oğlanla avtobus gözləyirdik. Dedim ki, avtobusumuz gəlir (avtobusun hansı nömrəli olduğunu dedim). Soruşdu ki, hardan görürsən, avtobus uzaqdadır. Dedim ki, sən görmürsən? Cavab verdi ki, yox. Dedi eynəyini mənə ver, baxım. Eynəyi taxdı, baxdı, rəngi belə dəyişdi, dedi ki, Hamlet, dünya nə gözəlmiş. Yəni bu insan o qədər torlu görməyə öyrəşib ki, hər şeyi duman içində görür, heç nəyi aydın görmürmüş. Birdən gözlük taxdıqdan sonra sən görürsən ki, gördüyün o ağac kölgə kimi deyil, onun gözəl yarpaqları var, üstündə çiçəklər var, çiçəklərin rəngi var. Deyirsən ki, həyat nə gözəldir. Yəni bu, vizual mənadadır. Və bir də var ki, insanın duyğuları, xəyalı onun gözündən uzağı görür, insanın görə bilmədiyini görür. Xəyal gücü işıq sürətindən də güclüdür, bir anın içində kainatın təsəvvür olunmaz möcüzələrini sən təsəvvür edirsən. O xəyal gücü ilə dünyanı gözəl görməyə kömək edən də oxumaqla güclənir. Onu başqa cür əldə etmək olmur. Sizə bu cür xoşbəxt olmağı arzu edirəm.

***

Sonra Xəzər Universitəsinin məzunları Sevinc Baharova və Pərvin Hacıyev birinci kurs tələbələrini təbrik etdilər, onlara təhsildə və şəxsi həyatlarında uğurlar arzuladılar. Mələhətli səsi olan Sevinc bir mahnı da ifa etdi.

Mərasim Xəzər Universitəsi mahnı və rəqs ansamblının konsert proqramı ilə başa çatdı. Konsertdə Nailə xanım İsayevanın Hamlet İsaxanlının sözlərinə bəstələdiyi mahnılar da ifa olundu.

"Xəzər Xəbər"

MƏZUNLARIMIZ ARASINDA ƏCNƏBİLƏRİN YERİ



Xəzər Universitəsində təhsilin, əsasən, ingilis dilində aparılması sınanmış dünya təhsil təcrübəsindən və təhsil ənənələrindən, dərslik və elmi nəşrlərdən səmərəli istifadə etməyə şərait yaradır, tələbə-müəllim mübadilə proqramlarının uğurla həyata keçirilməsinə yol açır, tələbələrimizin təhsillərini dünyanın tanınmış universitələrində davam etdirməsinə, eləcə də xarici ölkələrdə çalışmalarına geniş imkan yaradır.

Bütün bunlarla yanaşı, təhsilin ingilis dilində olması xarici ölkə vətəndaşlarının ölkəmizdə təhsil almaq imkanlarını və istəklərini təbii olaraq artırır. Universitəmizin fəaliyyətdə olduğu müddətdə dünyanın bir çox ölkələrindən gəlmiş əcnəbi tələbələr burada təhsil almışlar. Onların içində ABŞ, Qərbi Avropa ölkələri, Rusiya və başqa keçmiş sovet ölkələri, Türkiyə, İran, İraq, Hindistan, Pakistan, Çin, Şimali Koreya, Nigeriya, Anqola, Banqladeş və.s. kimi ölkələrdən gələn tələbələr var. Bu gün «Xəzər»də təhsil alan tələbələrin 9%-i əcnəbi tələbələrdir (bax: qeyd 6).

Fəaliyyətdə olduğu müddətdə Universitəmizə qəbul olunan əcnəbi vətəndaşların heç də hamısı təhsillərini başa vurmamışlar. Onların bir hissəsi müxtəlif səbəblərdən (ailə problemləri, adaptasiya ilə bağlı problemlər, təhsil aldıqları ixtisasların bağlanması, başqa ali məktəblərə və başqa ölkələrə azsaylı köçürülmələr, təhsildə şəxsi uğursuzluqlar və s.) təhsillərini yarımçıq qoymalı olmuşlar. Bü günə qədər Universitəmizdə 52 nəfər əcnəbi tələbə məzun olmuşdur (ümumilikdə məzunların 3,9%-i). İndi onlar haqqında statistik məlumatlar cədvəlini nəzərinizə çatdırırıq.

Universitəmizdə təhsil alan əcnəbi tələbələrin təhsil məsələləri ilə bağlı problemləri, əsasən, uyğun fakültə dekanlıqlarında həll olunsa da, əcnəbi tələbələrlə iş prosesində «Əcnəbi alimlər və tələbələr şöbəsi»nin fəaliyyəti xüsusi qeyd edilməlidir. Gündəlik həyatlarının ən xırda məişət məsələləri də daxil olmaqla, demək olar ki, bütün problemlərinin həllində bu mərkəz əcnəbi tələbələrə doğmalıq göstərir, onlara yüksək səviyyədə xidmət etməyə çalışır. Bu məsələlərdə Universitəmizin bütün əməkdaşlarının adı çəkilən şöbəyə yardımçı olmaları arzuolunandır.



ƏCNƏBİ MƏZUNLAR HAQQINDA STATİSTİK MƏLUMATLAR

Fakültələr	Bakalavr						Magistr						Doktor Ph.D		Cəmi					
	cəmi		fəxri		adi		cəmi		fəxri		adi				Birlikdə		fəxri		adi	
Memarlıq, mühəndislik və tətbiqi elmlər	11	10 1	2	1 1	9	9	10	9 1	3	2 1	7	7	2	1 1	23	20 3	5	3 2	18	17 1
İqtisadiyyat və menecment							2	2			2	2			2.	2			2	2
Humanitar və sosial elmlər	1	1			1	1	3	1 2	1	1	2	1 1	1	1	5	2 3	1	1	4	2 2
Tibb, stomatologiya və səhiyyə	22	13 9	4	2 2	18	11 7									22	13 9	4	2 2	18	11 7
Cəmi	34	23 11	6	3 3	28	20 8	15	12 3	4	2 2	11	10 1	3	2 1	52	37 15	10	5 5	42	32 10

Qeyd 1: *Universitədə mövcud olan Hüquq və Təhsil fakültələrində əcnəbi məzun yoxdur.*

Qeyd 2: *Cədvəldə, hər bir bölmədə məzunların ümumi sayını göstərən rəqəmin qarşısındakı 2 mərtəbəli rəqəmlər, uyğun olaraq, oğlan və qız məzunların sayını göstərir.*

Qeyd 3: *Təsnifatda, tibb ixtisası üzrə məzunların diplomları bakalavr diplomu kimi qəbul edilmişdir.*

Qeyd 4: *52 məzundan 10-u universitəni fəxri diplomla bitirmişdir. Onlardan 6 nəfər bakalavr, 4 nəfər isə magistr məzunlardır. Məzunlar arasında yüksək fəxri və ən yüksək fəxri diplom almış məzun yoxdur.*

Qeyd 5: *Məzunların ölkələr üzrə təsnifatı aşağıdakı kimidir:*


Türkiyə -1 (bakalavr), Pakistan – 2 (hər ikisi bakalavr), İran – 17 (bakalavr-7, magistr – 8, Ph.D-2), İraq -2 (bakalavr -1, magistr -1), Hindistan -23 (bakalavr -22, magistr -1), Nigeriya -3 (bakalavr -1, magistr -2), Liviya -2 (magistr-1, Ph.D-1). Yəmən -1 (magistr), Misir -1 (magistr).

Qeyd 6: *Əcnəbi tələbə-məzun dedikdə, qəbul prosesində əcnəbi vətəndaş olaraq qəbul edilmiş tələbə-məzun nəzərdə tutulur. Başqa sözlə, TQDK-nın keçirdiyi test imtahanlarında iştirak edərək qəbul olunmuş gürcüstanlı və bəzi MDB ölkələrindən olan tələbə-məzunlar əcnəbi olaraq göstərilməmişdir.*

İsaxan İSAXANLI,
Qəbul və tələbə şöbəsinin müdiri
Lamiyə NAMAZOVA,
Qəbul və tələbə şöbəsinin laborantı

Universitəmizin yeni nəşrləri

"AZƏRBAYCAN SEVGİ POEZİYASI"



Xəzər Universitəsi Nəşriyyatında çoxcildli nəşr kimi nəzərdə tutulan "Azərbaycan sevgi poeziyası" antologiyasının birinci cildi çapdan çıxmışdır. Azərbaycanın kitab nəşri tarixində bənzəri olmayan bu layihənin müəllifi və birinci cildin tərtibçisi Xəzər Universitəsinin rektoru, şair Hamlet İsaxanlıdır. Kitabın nəfis dizayn işi də ona məxsusdur.

Antologiyanın XX əsr Azərbaycan poeziyasını ehtiva edən birinci cildinə Məmməd Səid Ordubadi, Hüseyn Cavid, Əhməd Cavad, Əliağa Vahid, Cəfər Cabbarlı, Osman Sarıvəlli, Səməd Vurğun, Süleyman Rüstəm, Məmməd Rahim, Mikayıl Müşfiq və Rəsul Rzanın yaradıcılığından seçilmiş sevgi şeirləri daxil edilmişdir.

Kitab Hamlet İsaxanlının tərtibçi kimi yazdığı ön sözdən sonra onun "Sevgi və Poeziya" adlı irihəcmli məqaləsi ilə başlanır. "Xəzər Xəbər"in bu sayında ön sözü oxuculara təqdim edirik.

Yaxşı sevgi şeirlərimiz...

Azərbaycan poeziyasının zəngin tarixində sevgi aparıcı mövzulardan biridir və şübhəsiz ki, sevgiyə həsr olunan şeirlər ən çox əzbərlənən və sevilən poetik nümunələr arasındadır. Böyük-kiçik hökmdarların, müxtəlif dini, siyasi ideologiyaların hakim olduğu zamanlarda yazıb-yaradan, sarayla dil tapan, ona xidmət edən və ya saraylarla əlaqəsi olmayan şairlərimiz könlünü eşq aləminə vermiş, ədəbiyyatımızı yaşadan şah əsərlər qoyub getmişlər. Klassiklərimizlə yanaşı bir çox orta əsr və çağdaş dövr şairlərimiz də ağızda gəzən, ürəkləri oynadan, musiqiyə dönən gözəl sevgi şeirləri yazmışlar. Bu şeirləri seçib, bir yerə toplayıb bütöv şəkildə oxuculara təqdim etmək çoxdankı arzum idi.

Əvvəlcə, bircildlik üzərində düşünürdüm (mümkündür ki, qalın, irihəcmli); lakin düşüncələrim nizama düşdükcə, məsələyə yaxın gedib ona daha dərindən nüfuz etdikcə, bircildlik fikrindən vaz keçməli oldum. Şairlərimizin *ən yaxşı* sevgi şeirlərinin hamısını, *yaxşı* sevgi şeirlərinin isə çox böyük qismini kitaba daxil etmək istədim. Adətən, ən yaxşı şeirlərin seçimi poeziya həvəskarları və biliciləri, şeir yazan və şeir sevənlər arasında böyük fikir ayrılığı doğurmur, "sadəcə yaxşı" şeirlər barədə isə fikir müxtəlifliyi olması mümkündür (və bu təbiidir – zövqlər müxtəlifdir, "yaxşı nədir, pis nədir" sualına hərənin öz cavabı var).

"Две системы - традиционная и западная медицина - не являются взаимоисключающими", - заявила 7 ноября генеральный директор Всемирной организации здравоохранения (ВОЗ) доктор Маргарет Чань, выступая перед более чем 1200 участниками из 74 стран на первом Конгрессе ВОЗ по традиционной медицине, проводившемся 7-9 ноября в Пекине.

"В контексте первичного здравоохранения, - сказала Чань, - эти системы могут сочетаться друг с другом в полезной гармонии, с использованием лучших особенностей каждой системы и восполнением определенных слабостей в каждой из них. Все это не будет происходить само по себе. Нужны осознанные политические решения. Но этого можно успешно добиться".

Страны Африки, Азии и Латинской Америки используют традиционную медицину для удовлетворения ряда потребностей в первичном здравоохранении. В Африке до 80 процентов людей пользуются традиционной медициной в целях первичного здравоохранения. Подобная практика также расширяется в промышленно развитых странах, где адаптация традиционной медицины называется дополнительной или альтернативной медициной.

ПЕКИНСКАЯ ДЕКЛАРАЦИЯ

В ходе встречи, организованной ВОЗ при поддержке министерства здравоохранения Китая и Государственного управления традиционной китайской медицины, официальные лица из различных стран, представители 19 центров ВОЗ по традиционной медицине, неправительственных организаций и ключевых партнеров обсудили и приняли Пекинскую декларацию о внедрении и развитии традиционной медицины.

В декларацию включены следующие рекомендации:

- Следует уважать и сохранять знания о традиционной медицине, методах лечения и практике.
- Правительства должны в рамках своих национальных систем здравоохранения формулировать нормативные акты и стандарты, обеспечивающие безопасное использование традиционной медицины.
- Правительства должны создавать системы аккредитации или лицензирования врачей, практикующих традиционную медицину.
- Традиционную медицину следует развивать на основе исследований и нововведений в соответствии с Глобальной стратегией и Планом действий по здравоохранению, нововведениям и интеллектуальной собственности, принятым на 61-й Всемирной ассамблее здравоохранения в 2008 году.

"В этом году отмечаются шестидесятилетие ВОЗ и тридцатилетие Алма-атинской декларации, принятой ВОЗ и ЮНИСЕФ в 1978 году", - сообщила America.gov по электронной почте доктор Чжан Сяоруй, организатор встречи и координатор по традиционной медицине в Департаменте ВОЗ по основным лекарствам и фармацевтической политике.

"Алма-атинская декларация важна для традиционной медицины, - указала она. - Хотя традиционная медицина используется уже тысячи лет, и те, кто ее практикует, внесли большой вклад в здравоохранение, Алма-атинская декларация стала

первым признанием роли традиционной медицины и ее последователей в первичном здравоохранении со стороны ВОЗ и входящих в нее государств".

БЕЗОПАСНАЯ ПРАКТИКА

Традиционная медицина общедоступна, недорога и обычно используется во многих странах Африки, Азии и Латинской Америки. Для миллионов людей, особенно сельских жителей развивающихся стран, лечение травами и терапия, осуществляемая традиционными целителями, порой являются единственной доступной формой здравоохранения.

В Китае на долю традиционных травяных препаратов приходится 30-50 процентов общего потребления лекарств. В Гане, Мали, Нигерии и Замбии первая линия лечения для 60 процентов детей с сильной малярийной лихорадкой - травы, употребляемые в домашних условиях.

В Сан-Франциско, Лондоне и ЮАР традиционной медициной пользуются 75 процентов людей, живущих с ВИЧ/СПИДом.

В Мэриленде Национальный центр дополнительной и альтернативной медицины, входящий в систему Национальных институтов здравоохранения, является одним из сотрудничающих центров ВОЗ по традиционной медицине.

Его миссия - использовать строгие научные данные для освоения дополнительных и альтернативных методов лечения, подготовка исследователей в области дополнительной и альтернативной медицины и распространения информации среди медиков и общественности.

"Мы в нашем центре говорим, что наша задача - проводить качественные исследования по дополнительной и альтернативной медицине, рассказал America.gov заместитель директора центра доктор Джек Киллен, - и что практика, признанная безопасной и эффективной, должна стать составной и доступной частью здравоохранения, откуда бы она ни исходила".

По данным ВОЗ, акупунктура оказалась эффективной при смягчении послеоперационных болей, тошноты при беременности, тошноты и рвоты в результате химиотерапии и зубной боли - при чрезвычайно малом количестве побочных эффектов. Она также может смягчать тревогу, панические расстройства и бессонницу.

С 1997 года Национальный центр дополнительной и альтернативной медицины финансирует обширные исследования по развитию научного понимания акупунктуры. Некоторые исследования, проходившие в последнее время при поддержке центра, выявляли, эффективна ли акупунктура при таких конкретных состояниях здоровья, как хроническая боль в спине, головные боли и остеоартрит колена; каким образом может действовать акупунктура - в частности, что происходит в мозгу при лечении акупунктурой; способы более качественного определения и понимания потенциальных неврологических свойств меридианов и точек акупунктуры; методы и прибор № для повышения качества исследований по акупунктуре.

По сведениям ВОЗ, йога может ослабить приступы астмы, методы тай-чи могут помогать пожилым людям меньше бояться падений, а традиционная медицина может воздействовать на инфекционные заболевания.

Например, китайское травяное средство Artemisia annua, применяемое в Китае почти 2000 лет, эффективно против лекарственно-устойчивой малярии и может обеспечить прорыв в предотвращении почти 1 миллиона смертей в год - в основном, детских - от острой малярии, сообщает ВОЗ.

Традиционные методы лечения являются достоянием истории, которое стало более актуальным в условиях глобализации нездорового образа жизни, быстрой стихийной урбанизации и старения населения, указала Чань. Глобальные последствия для здоровья проявляются во всемирном распространении хронических заболеваний типа сердечнососудистых болезней, рака и диабета.

"При этих заболеваниях и многих других состояниях, - добавила она, - традиционная медицина может многое предложить в части профилактики, утешения, милосердия и заботы".

(Распространено Бюро международных информационных программ Государственного департамента США.

Веб-сайт: http://www.america.gov/ru)

Unutsaq, unudularıq

XUDU MƏMMƏDOV:

TƏBİƏTLƏ SƏNƏTİN HARMONİYASI



Seymur Elsevər

Xudu Məmmədov haqqında söz demək mənə həmişə çətindən-çətin görünüb. Yəqin geoloq olub dağlara, yüksəkliklərə çıxmaq eşqilə kənddən Bakıya üz tutan bu insanın həyatda və elmdə ən uca zirvələrdə dayanmasıdır məni onun barəsində bir-iki kəlmə söyləməkdən çəkindirən.

Birdən elm və mədəniyyətimizdə, ictimai şüurumzda möhtəşəm dağa dönmüş Xudu müəllimin miqyasına uyğun gəlməz – deyə fikrimdən daşınmışam.

Ötən il dekabrın 14-də əvəzolunmaz Xudu Məmmədovun səksən yaşını onsuz qeyd etdiyimiz günlərdə "yox, çalışıb özümdə təpər tapıb nəsə deyəcəm" qərarını verdim. Di gəl, bilmədim nədən başlayıb, nədə qurtarım. Budur, gözümüzü açıb-yummamış bir il də keçdi. Xudu müəllimsiz daha bir il. Qarabağsız, Şuşasız, Üzeyir bəysiz, Bülbülsüz...

"Onun ömür yolundan danışmağa nə hacət" – deyib, diqqətçəkən məqamların üstündə dayanmağı lazım bildim. Həyatda və elmdə məşhur əsərinin adı kimi qoşa qanada bənzər fenomeni, gümanımca, xüsusi dəyərə malikdi. Xudu müəllim təbiətlə, riyazi qanunlarla sənətin harmoniyasını heyrətamiz şəkildə, coşquyla qələmə alan, dilə gətirən, təbliğ edən şəxs kimi yalnız vətənində sevilmədi, dünyanın işinə yarayıb, sərhədsiz şöhrətə sahib çıxdı. Və qəribə görünsə də, onu kənardakılar bizdən daha yaxşı qiymətləndirdilər məncə. Elinə, obasına, xalqına, vətəninə, dilinə, musiqisinə vurğunluğu heç kimə gizli olmayan alim çalışdığı sahənin mütəxəssisindən daha çox mədəniyyətimizin, mənəviyyatımızın cəfakeşi kimi qibtə yaradacaq millət sevgisini qazandı.

"Elmin vətəni yox, alimin Vətəni olmalıdı" fikrini söyləyən Xudu Məmmədovun bütün qəlbi, hərarəti yaşayan yazılar nə yaxşı ki, yaxınlarda nəfis tərtibatda kitab şəklində işıq üzü gördü, onu sevənlərə ünvanlanmaq fürsəti tapdı.

Görkəmli vətəndaş alim Xudu müəllimi bir daha anaraq, onun çoxlarının dillərinin əzbərinə çevrilmiş bayatı, rübai və fikirlərilə sizi baş-başa buraxmaq istəyirəm. Məncə, daha heç nə söyləməyib, fikirlərimə son nöqtə qoya bilərəm. Çünki Xudu Məmmədovundu bu sözlər! Xudu ətirli, Xudu nəfəsli, Xudu təravətli sözlər...

❋ *Deyirlər: "Dünyanı gözəllik xilas edəcək". Doğrudur, amma gözəlliyin özünü xilas edə bilsək.*

❋ *Onun qəlbi qarabağlıların səs telləri kimi incə idi.*

❋ *Tanrı insanı yaşada bilmir, el yaşadır.*

❋ *Bir şeyi və hər şeyi bilən heç bir şeyi bilmir.*

❋ *Təbiət qanunları ilə cəmiyyət qanunlarının əsas fərqi ondan ibarətdir ki, birinciləri cəzasız pozmaq mümkün deyil, ikinciləri isə mümkündür.*

✦

Əlim köməyim olsun,
Elim köməyim olsun,
Elimə yük olarsam,
Ölüm köməyim olsun.

✦

Anam ozan olubdur,
Dərdə dözən olubdur,
Dili haqdan bağlanıb,
Naxış düzən olubdur.

✦

Bu Qala - bizim Qala,
Qaldıqca bizim Qala.
Qurmadım, özüm qalam,
Qurdum ki, izim qala.

✦

Sənə bəslədiyim, Vətən, nə simdi?
Səsinnən ürəyim əsim-əsimdi.
Sevgimin əvəzin vermək istəsən,
Bir ovuc torpağın olmaq bəsimdi.

LENT.AZ

BALTİKYANI ÖLKƏLƏRİN AZƏRBAYCANLI GƏNCLƏR VƏ TƏLƏBƏ ASSOSİASİYASI YARADILMIŞDIR



AzərTAc xəbər verir ki, Estoniyanın Tallin şəhərində Baltik Azərbaycanlıları Konqresinin illik iclası keçirilmişdir. İclasda 2008-ci ilin yekunları təhlil edilmiş, 2009-cu il üçün iş planı müzakirə olunmuş, Baltikyanı Ölkələrin Azərbaycanlı Gənclər və Tələbə Assosiasiyasının yaradılması məsələsinə baxılmışdır. Diaspor ilə İş üzrə Dövlət Komitəsindən bildirmişlər ki, toplantıda Estoniya, Latviya və Litvada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının rəhbərləri, bu ölkələrdə yaşayan və təhsil alan azərbaycanlı gənclər, Diaspor ilə İş üzrə Dövlət Komitəsinin əməkdaşları iştirak etmişlər.

İclasdan sonra Baltikyanı Ölkələrin Azərbaycanlı Gənclər və Tələbə Assosiasiyasının təsis konfransı keçirilmişdir. Konfransda bildirilmişdir ki, Dövlət Komitəsi Baltikyanı ölkələrdə yaşayan və təhsil alan azərbaycanlı gənclərin vahid bir təşkilatda birləşməsini təqdirəlayiq hesab edir. Baltikyanı ölkələrdəki Azərbaycan diaspor təşkilatlarının təmsilçiləri gənclərə tövsiyələrini vermiş, onlara hərtərəfli maddi və texniki dəstək göstərəcəklərini bildirmişlər.

Təsis konfransında qurumun strukturu müzakirə edilmiş, hər respublikadan 5 nəfər olmaqla şura və 3 nəfərdən ibarət idarə heyətinin yaradılması qərara alınmış, təşkilatın həmsədrləri seçilmişdir. Təşkilatın 3 ölkə üzrə əlaqələndirmə işləri isə koordinator-katiblik təsisatına həvalə edilmişdir. Əsasnamənin işlənib hazırlanması məqsədi ilə işçi qrup yaradılmışdır.

Baltikyanı Ölkələrin Azərbaycanlı Gənclər və Tələbə Assosiasiyasının qərargahı Riqa şəhərində yerləşəcəkdir.

Təşkilatın internet saytı da yaradılacaqdır. Bu işi Azərbaycanın Latviyadakı səfirliyi və Diaspor ilə İş üzrə Dövlət Komitəsi öz üzərinə götürmüşlər.

Satirik qələmlə

BİZİM YOLDA...

Bakıda dekabr ayıdır, soyuq az qala insanın iliyinə işləyir. Səhər tezdən işə tələsən çoxları kimi mən də dayanacaqdayam. Amma "avtobus" dediyimiz gəlib çıxsa, nə dərd... Bilin ki, bizim tərəfdə avtobus, sözün əsl mənasında, öz kefi ilə işləyir. Gərək Allaha dua edəsən ki, əlin-ayağın donmamış gəlib çıxa...

Axır ki, tamam buza döndükdən sonra həsrətlə gözlədiyimiz gəlir və biz birtəhər içəri daxil olmağa başlayırıq (yaxşı ki, hələ birinci qızlar, qadınlar daxil olur). "Avtobus" deyəndə, sizi çaşdırmaq istəmirəm, çünki başqa ellərdə bizim istifadə etdiyimiz bu minik maşını tamam ayrı xidmətlər üçün nəzərdə tutulub. Daha doğrusu, Avropa tərəflərdə belə nəqliyyatdan yalnız müxtəlif cür əşya, ərzaq daşımaq və buna oxşar xidmətləri həyata keçirmək üçün istifadə olunur. Amma nə fayda, bizə ki sərf edir, əsas elə budur. Onsuz da belə dəlmə-deşik, çatlamış, iki gündən bir qazılıb dağıdılmış yollarda Avropa sərnişinlərinin istifadə etdikləri avtobuslar çox ömür sürməz...

Avtobusa daxil olarkən gərək başını gözləyəsən, əks halda, adam kimi daxil olsan, alnının bir hissəsindən küt zərbə ala bilərsən ki, bu da ən azı kəllə sümüyünün möhkəmcə zədələnməsi ilə nəticələnə bilər. İkiqat şəkildə bir təhər içəriyə daxil olduqdan sonra özünə boş oturacaq tapsan, böyük xoşbəxtlikdir. Amma oturduğun yerin də səliqəli olacağını (oturacağın üzlüyü bəlkə illərdir yuyulmur) gözləmə. Kasıbın, onsuz da, heç nədə bəxti gətirmir, ayda-ildə boğazından kəsib zorla aldığı paltar da, bax, bu yollarda iki günə keyfiyyətini itirir. Lap oturdun, bəs sonrası?

Yanımda ayaq üstdə duran cavan oğlan (başında 1 kilo jele, dar-dürtdək şalvarda, ağzında saqqız) taxıb telefon qulaqcıqlarını, sözün əsl mənasında, kef aləmindədir. Hərdən mənə elə gəlir ki, bəzi gənclər dünyaya nə üçün gəldiklərini, nə üçün yaşadıqlarını dərk etmirlər. Mən bircə bunu anlaya bilmirəm ki, bizə nə oldu belə? Bəyəm biz ata-babalarımızı tanımırıqmı, onların bizə miras qoyub getdikləri elm, sənət, mədəniyyət, adət-ənənə nə tez unuduldu, nə tez standartlara uyğun gəlmədi?.. Oğlan özgələrinin rep musiqisində itib-batıb, hələ dinlədiyi sözləri başa düşsə, dərd yarıdı...

Yolboyu sərnişinlər avtobusa daxil olur. Amma yaşlı qadınlar ayaq üstə qalmırlar. Cavan oğlanlar onlara yer verirlər. Ancaq bu dəmdə, bu sıxlıqda içərinin iy-qoxusunu soruşmayın. Bəli, bir-ikisi səhər açılmamış çay əvəzinə arağı sarımsaqla vurub. Hələ bu harasıdır... Arxamdakı iki qızın durmadan bərkdən yarı rus, yarı azərbaycanca mənasız, iyrənc söhbətləri yaşlı sərnişinlərin səhər-səhər əhval-ruhiyyəsinə sanki zəhər tökür. Bir soruşan ola ki, a bala, niyə öz dilində danışmırsan?

Gəlin sizə bir az da bizim sürücüdən danışım. Deyəcəksiniz, mən daha qılıncı əlimə almışam, vallah nə edim?! Bəyəm sürücü olanda nə olar, axı adamın səviyyəsinə nə gəlib?! Sürücü avtobusu, belə desək, sözün əsl mənasında dəngəsər kimi idarə edir. Beləliklə, bu qədər sərnişinin taleyi qalır bu yöndəmsizin əlində. İndi ümid qalır Allaha ki, gedib bir təhər istədiyin mənzilə çata biləsən. Hələ sizə yolda danışdığı boşboğaz söhbətlərdən (avtobusu doğru-düzgün idarə edə bilmir, siyasətdən dəm vurur), sərnişinlərin ardınca gileylənməsindən demirəm... "Özü səviyyədə" bir musiqi də oxutdurur, sadəcə, insanın bu dəmdə səbri gərək daşdan ola. Oxudulan mahnıya musiqi demək (məntiqsiz sözlər, ürəkbulandıran bəstə) günah olar, sadəcə, musiqi adına təhqirdir.

Artıq içəri sərnişinlə o qədər dolub ki, özümü bir anlığa üst-üstə yığılmış yük kimi hiss edirəm. Bax, belə bir şəraitdə hər kəsin əsəbləri son nöqtəyə çatır, düşünürsən ki, görən haçan biz də ağ günə çıxacayıq, axı camaat artıq "Mars"la" əlləşir. Yenə, hardasa, buna da şükür, deyirlər ki, Afrikada camaat avtobusun damında gedir...

Az sonra pulumu verib düşürəm, amma yaman yorulmuşam, hətta belə desək, yamanca əzilmişəm. Zibillə dolu asfaltla iş yerimə doğru irəliləyirəm və artıq gecikdiyimə görə nə deyəcəyim belə məni narahat etmir. Hər gün işə gedərkən eyni vəziyyəti (hələ bundan da ağır) yaşamaq olduqca dəhşətlidir. Bax, belə getsə, mənim halım nə olacaq, bunu həqiqətən bilmirəm?..

Günel MUSTAFAYEVA

AZƏRBAYCAN İDMANÇILARININ UĞURLARI

TAEKVONDOÇULAR: AVROPA KUBOKU TURNİRİNDƏ 4 MEDAL

Azərbaycan taekvondoçuları Moskvada tələbələr arasında başa çatmış Avropa kuboku turnirində 4 medal qazanmışlar.

Azərbaycan Taekvondo Federasiyasından bildirmişlər ki, yığma komandanın heyətində Zahid Məmmədov *(58 kq)* bütün döyüşlərini qələbə ilə başa vuraraq, fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdır. Sənan Əsədzadə *(72 kq)* gümüş medala sahib olmuşdur. Samir Aydınov *(54 kq)* və Bayraməli Vəliyev *(84 kq)* isə bürünc medal qazanmışlar.

Ümumi komanda hesabında Azərbaycan yığması 18 ölkə arasında 5-ci olmuşdur.

GÜLƏŞÇİLƏR: BEYNƏLXALQ TURNİRDƏ 3 MEDAL

Qazaxıstanın Atırau şəhərində yunan–Roma güləşi üzrə beynəlxalq turnir başa çatmışdır. Bakı şəhər Gənclər və İdman Baş İdarəsindən bildirmişlər ki, Azərbaycanı yarışda təmsil edən "Spartak" İdman Cəmiyyətinin üzvləri Məhərrəm Mehdiyev (54 kq) və Elvin Abbaslı (69 kq) qızıl medallara sahib olmuşlar. Şamil Mehdizadə (47 kq) isə bürünc medal qazanmışdır.

Ümumi komanda hesabında Azərbaycan yığması üçüncü yeri tutmuşdur.

Qeyd edək ki, Azərbaycan idmançıları yarışa Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin dəstəyi ilə yollanmışdılar.

KİKBOKSÇULAR: AVROPA ÇEMPİONATINDA 4 MEDAL

Portuqaliyada kikboksinq üzrə Avropa çempionatı başa çatmışdır.

Azərbaycan kikboksçuları Eduard Məmmədov (60 kq) və Emil Kərimov (54 kq) gümüş medallara layiq görülmüşlər. Digər həmyerlilərimizdən Etiram Məcidov (81 kq) və Nurlan Qədimov (81 kq) isə bürünc medal qazanmışlar.

BOKSÇULAR: DÜNYA KUBOKU TURNİRİNDƏ 2 MEDAL

Azərbaycan boksçuları Moskvada keçirilən dünya kuboku turnirində iki bürünc medal qazanmışlar.

Famil Süleymanov (60 kq) və Azər Məmmədov (91 kq-dan yuxarı) yarımfinal döyüşlərini uduzaraq üçüncü yeri tutmuşlar.

ŞAHMATÇILAR: MÜKAFATÇILAR SIRASINDA

İspaniyada başa çatmış beynəlxalq şahmat turnirində Azərbaycan təmsilçiləri uğurla çıxış edərək mükafatçılar sırasına düşmüşlər.

Belə ki, yarış iştirakçılarından Azər Mirzəyev 6 xalla 2-ci, Rəsul İbrahimov isə 5 xalla 3-cü yeri tutmuşdur.

Turnirin baş mükafatına isə ispaniyalı İdalqo Errariz (6 xal) layiq görülmüşdür. İspaniya şahmatçısı həmyerlimizi yalnız əlavə göstəricilərə görə qabaqlamışdır.

***

Azərbaycan şahmat məktəbinin yetirməsi, beynəlxalq qrossmeyster Eltac Səfərli İspaniyanın Palma-de-Malyorka şəhərində başa çatmış 3-cü açıq "Trofeo Liberostar" beynəlxalq şahmat turnirində 3-cü yerə çıxmışdır.

Həmyerlimiz İsveçrə sistemi ilə keçirilən turnirdə 9 oyundan 7 xal toplamışdır.

Turnirin qalibi adına isə İngiltərə qrossmeysteri S.Xaslinqer layiq görülmüşdür.

Yarışda 126 şahmatçı iştirak edirdi.

USAQ DÜNYASI

"Xəzər Xəbər" toplusunun məktəblilər üçün əlavəsi

İBO-nun RƏSMİLƏRİ "DÜNYA" MƏKTƏBİNDƏ



Beynəlxalq Bakalavr Təşkilatının (IBO) rəsmiləri 2008-ci il dekabrın 2-də və 3-də «Dünya» məktəbində olmuşlar. Məqsəd «Dünya» məktəbinin dünya təhsilində tutduğu yerin mahiyyətini öyrənmək idi. Nəzarətçilər – İsveçrədən Deyvid Nyusam və Rusiyadan Larisa Karabelçikova «Dünya» məktəbində IBO-nun Diplom Proqramının (DP) tətbiq edilməsi barədə məktəbin hazırlıq səviyyəsini araşdıraraq, müxtəlif tövsiyələr verdilər.

Səfərin məqsədi, geniş anlamda, ayrı-ayrı müəllimlərin və ya məktəb rəhbərliyinin fəaliyyətini qiymətləndirmək deyil, «Dünya» məktəbinin Diplom Proqramının təhsil fəlsəfəsi və təcrübəsindən nə dərəcədə yararlanacağına əmin olmaq idi. IB heyəti «Dünya» məktəbinin DP-nin fəlsəfəsi, məqsədi, standart və təcrübələrini tətbiq etməyə hazır olub-olmadığını müəyyənləşdirərək, proqramın mahiyyətinin təkmilləşdirilməsi ilə bağlı məktəb rəhbərliyinə təlimat və məsləhət verdilər.

Səfər səmərəli oldu. Qonaqlar DP heyəti ilə ayrı-ayrılıqda və qrup halında rəsmi müsahibələr keçirdilər, qeyri-formal söhbətlər apardılar. Onlar rəhbərliklə, müəllimlərlə, valideyn və tələbələrlə görüşlər keçirdilər, məktəbin imkanlarını və tədris materiallarını nəzərdən keçirdilər, siniflərə baş çəkdilər.

Səfərdən sonra IB heyəti «Dünya» məktəbinə Beynəlxalq Bakalavr Təşkilatının dünya məktəbləri sırasına daxil olmasına səlahiyyət verilməsi barədə regional ofisə məruzə təqdim edəcəkdir. IBO-nun baş direktorunun verəcəyi son qərar barədə məlumat məktəbə üç-altı həftə ərzində göndəriləcəkdir.

Nərgiz MAHMUDZADƏ,
IB məsləhətçisi

"DÜNYA" MƏKTƏBLİLƏRİNİN SOVQATI





Hər bir insan həyatının müəyyən çağında çətinliklərlə üzləşsə də, ona sinə gərməyə özündə qüvvə tapa bilir. Bu dəfə haqqında söhbət açacağım şəxslər isə uşaq evinin hələ addımlarını yerə möhkəm basmağı bacarmayan, ürkək baxışlı sakinləridir. Həyatın çətinliklərini kiçik çiyinlərində daşımağa məcbur olan bu körpə balaları, az da olsa, sevindirməyə çalışan "Dünya" məktəbliləri noyabr ayının 27-də Suraxanı rayonundakı 7 saylı internat məktəbinə üz tutdular. Bu xeyirxah işin həyata keçirilməsində hər bir məktəbli böyük həvəslə iştirak etdi. Uşaq evinə aparmaq üçün xeyli ərzaq, paltar, şirniyyat toplandı və uşaqların sayına görə bölündü. Yəni, hər uşağın öz ərzaq və geyim payı oldu.

Mənzil başına çatanda bizi uşaq evinin daimi sakinləri ilə yanaşı onlara rəhbərlik edən direktor Qabilə xanım qarşıladı. Bizi uşaq evinin akt zalına dəvət etdilər. Zalda bütün balacalarla görüşmək imkanımız oldu. "Dünya" məktəbliləri gətirdikləri sovqatı uşaqlara payladılar. Beləcə, hər bir uşaq öz payını aldı. Biz isə onların körpə qəlblərinə qısa müddətə də olsa sevinc bəxş etdiyimizə görə çox məmnun olduq.

Eyni zamanda, "Dünya" məktəbi şagirdlərinin valideynlərinə bu xeyirxah işdə böyük həvəs və ürək açıqlığı ilə iştirak etdiklərinə görə təşəkkür edirik.

Mədinə RZAYEVA





MEMORABLE VISIT TO THE UNITED STATES

(Reflections on an intriguing U.S. visit)

I wouldn't have written this story about my visit to the United States had it not had such a tremendous impact on me. Or I might have been greatly impressed by the things that one sometimes takes closer and is compelled to live through. This was my first and probably the most memorable visit to America. At the same time, it was an exchange program visit which made it more important and valuable where education is concerned.

Some words should be said about the TEA program which is providing school teachers to pay exchange visits to the United States. TEA is a bilateral exchange program funded by the Bureau of Education and Cultural Affairs (ECA) of U.S.



Department of State, and implemented by IREX (the International Research and Exchanges Board). The chief goal of this program is to provide teachers from Eurasian and South Asian countries (this year there were 60 teachers which were split into 3 groups of 20 people from 11 countries and assigned to different states – Virginia (GMU), Alabama (UAH) and Nebraska (UNL) with the unique opportunity to develop expertise in their subject areas, enhance their teaching skills, and increase their knowledge about the United States.

To do this, we participated in a six-week professional development program at U.S. universities – George Mason University (GMU) in Virginia, the University of Alabama in Huntsville (UAH), and the University of Nebraska in Lincoln (UNL).

Our professional program included intensive training in teaching methodologies, curriculum writing, and the use of computers as teaching tools. I took the opportunity to participate in all these activities, and to actively share my knowledge and experience with the host university faculty and the internship faculty teachers and students.

All sessions and classes at UNL were given by highly qualified, tireless, amazing and unforgettable teachers. These classes played an important and significant role in my learning new teaching methodologies and strategies, making classes more activity based, student centered and learning oriented.

Apart from the above, classes on acquisition of knowledge in the field of technology (computer sciences and its use or application), curriculum framing and also enhancing leadership qualities in the field of education and community service were offered. These skills were the main applications of pedagogy that we were striving to acquire, thus the teachers at UNL tried mainly to focus on these issues. Here we – all TEA Fellows are indebted to our UNL faculty staff at the head of Dr. Joe McNulty – special thanks to him – who did everything to enrich this program and make it more flexible. I also want to express my gratitude to other teachers at UNL University; Dr. Anastasia McNulty, Mila Saskova, Del Harnisch, Ron Joekel, Shannon Cooley and to those whose names I didn't mention.

We also attended a two-week internship at some U.S. high schools, probably the most important and interesting part of this program.

My special thanks go to my mentor Alice Betts at Lincoln High School who tried to do everything to help me conduct lessons and make presentations about my country which seemed to make a huge impression on all participating students. I must say that most students don't have enough knowledge or they know nothing about our country. To fill this gap partly, I tried to do my best and the fruit of my efforts was demonstrated when I

asked the students to write about what they had learned about our country. They did it. I was very impressed by their letters. The following are passages from some of those letters written by the students at Lincoln High School, which our readers may find quite interesting.

Hey, Azerbaijan Student.

My name is Sarah Anderson. I live with my dad. .... We learned a lot about your country from Eldar. He is a great teacher.

Sarah Anderson.

Dear Student.

Salam! My name is Enka Jones and I attend Lincoln High School in Lincoln, Nebraska. I am very excited to get to know you and about your lifestyle. ... I live with my mom, Brenda, and my sister, Sarah. ... Mr. Zeynalov has told us so much about your country, and its culture, I've found it to be fascinating. We also heard the tale of Maiden Tower and we found the close relationship to the classic story Romeo and Juliet. I found the landscape to be gorgeous, which is a big change compared to the landscape in Lincoln. I now know where Azerbaijan is located too; I am not great with Geography. ...

Sincerely,

Enka and Erica Jones.

Dear Student,

Salam! It was fun learning about your country, Azerbaijan, but it is a little bit different from the United States. Your teacher, Eldar Zeynalov is very funny, intelligent and fun to be around. ... We learned a lot about the culture of Azerbaijan. ...

Sincerely,

Callie Kiehn.

Salam!

Hello! My name is Sydney, and I am 15 years old. I live in Lincoln, Nebraska. For a little while, I have gotten to know your teacher, Eldar. He is super cool and funny, you are very lucky to have him teaching you. ...

Sydney.

Salam!

My name is Minn. I go to Lincoln High School in Lincoln, Nebraska. It's located right in the middle of the United States. ... Thanks to Eldar, I learned a lot about Azerbaijan. That place is really beautiful and I hope to visit there some day! ...

Sincerely,

Minn Dong.

Dear Azerbaijan Student,

For the past few days I have been learning a lot about your country Azerbaijan. For example, something interesting is it is called the Land of Fire and has many interesting facts about it. And it is sad that Armenians are taking over your country and killing many people. ...

Sincerely,

Danar.

I can extend the list of students who wrote some good notes about our country, but I think our students will be able to read about all of them later.

For me, another important and unforgettable moment of this program was Home Stay. Like all TEA participants, I also stayed overnight with an American family to become fully aware of the culture and lifestyle of an American family. I spent the night at Dr. Del Harnisch's house to whom I exp-



ress my gratitude for such kind hospitality. The following day was spent playing golf with some American friends at "Golf Center", which was a thoroughly enjoyable experience.

My trip was rich with cultural experiences. If I attempt to describe them all then I'll be writing a book. So, I only tried to jot down some of my impressions.

Finally, I want to express my acknowledgements and particular thanks to the principal of Dunya School Nailakhanum Isayeva, and Assistant Principal Marufa khanum, and to all those who encouraged me to participate in this program.

Eldar ZEYNALOV,
English teacher at Dunya School

ƏDƏBİYYAT LÜĞƏTİ

Gəlin, öyrənək!

KANSONA – orta yüzilliklər Qərbi Avropa poeziyasında cəngavər məhəbbətini tərənnüm edən lirik şeir. 3, 5, 7 bənddən ibarət olur.

KANTATA – müəyyən bir təntənə münasibəti ilə şeirlərə əsaslanan musiqi əsəri.

KANTİLENA – orta yüzilliklər Qərbi Avropa poeziyasında çalğı alətlərinin müşayiəti ilə oxumaq üçün yazılan kiçik həcmli lirik-epik şeir.

KARİKATURA – ədəbi əsərdə, rəsmdə ifşa məqsədilə qəsdən təhrif olunmuş təsvir. Bu məqamda təsvir olunanların mənfi cəhətlərini gülünc halda göstərmək üçün kiçiltmə və şişirtməyə üstünlük verilir.

KİNAYƏ – ədəbiyyatda müəyyən varlığa münasibətin yumor, satira yolu ilə ifadəsi. Sənətkar nöqsanlı, eybəcər şəxsə, zümrəyə, hətta hadisəyə, əşyaya mənfi münasibəti üstüörtülü, dolayısıyla, işarə ilə bildirir. Dilimizdə "kinayə ilə danışmaq", "kinayə ilə baxmaq, süzmək" deyimləri vardır.

KLASSİK – xalq arasında, bədii sənətdə şöhrət tapmış böyük yazıçı. Bəzən "klassik" deyəndə antik yazıçılar nəzərdə tutulur.

KLASSİK ƏDƏBİYYAT – keçmiş zamanın, yaxud müasir dövrün ən dəyərli, nümunəvi ədəbiyyatı.

KLASSİSİZM – 17-18 - ci yüzilliklərdə Qərbi Avropada, Rusiyada ədəbiyyatda və incəsənətdə özünü göstərən bədii metod. Klassisizm, əsasən, zadəgan, aristokrat, saray həyatı ilə bağlı olub. Klassisizm nümayəndələri həyat həqiqətlərindən bəhs edərkən, xalq həyatını göstərməkdən çəkinirdilər.

KOBZAR – Ukraynada xalq nəğməkarına verilmiş ad. Istedadlı kor adamlar dəstəsi də kobzarlar adlanır.

KOLLİZİYA – bir-birinə əks qüvvələrin, insan istəklərinin, mənafelərinin, məqsədlərinin toqquşmasının ədəbiyyat və incəsənət əsərlərində ifadə olunması.

KOMEDİYA – dram növlərindən biri . Komediyada həyatın gülünc və eybəcər xüsusiyyətləri, ictimai həyatda və məişətdə özünü göstərən mənfi tərəflər, insan xarakterindəki gülünc hallar lağa qoyulur. Komediyada gülüş həm yumor, həm də satira səciyyəli olur.

KOMPOZİSİYA - əsərin quruluşu, onun tərkib hissələrinin düzülüşü, əsərdə göstərilən həyat prosesini səciyyələndirən surətlərin, onların əlaqə və münasibətlərinin təşkili, hadisələrin təsviri qaydası.

KONTAMİNASİYA – bir ədəbi əsərin süjetinə və surətlər sisteminə aid olanların başqa bir əsərlə üzvi surətdə calaqlanması.

KONTEKST - əsərin mətninin mənaca bitmiş hissəsi. Müəyyən söz və ifadənin bütün əsərlə əlaqəsi.

KONFLİKT – bədii əsərdə süjetin inkişafının, iştirak edənlərin mübarizəsinin əsasını təşkil edən münaqişə, toqquşma.


KOŞUK – qədim türk lirik şeirinin çox yayılmış şəkillərindən biri. Misralarının sayı sabit olmur. Daha çox əmək, məhəbbət, qəhrəmanlıq mövzusunda olur. Misraları məsnəvi şəklində qafiyələnir.

KURTUAZ POEZİYASI – orta yüzilliklərdə Fransa saraylarında yaranan cəngavərlik poeziyası. Məhəbbət və qadına pərəstişin, cəngavərlik şərəfi və şücaətinin tərənnümü bu poeziyanın səciyyəvi xüsusiyyəti sayılıb.


KÜLLİYYAT – bir sənətkarın bütün əsərlərinin eynitipli cildlərdə toplanılmış nəşri.

Hazırlayanı:
Bəhlul ABDULLA

KİTABXANAMIZIN YENİ KİTABLARI




A sourcebook of HIV/AIDS prevention programs. volume 2, Education sector-wide approaches / edited by Alexandria Valerio, Don Bundy, Michael Beasley. – Washington, DC: World Bank, 2008. – 246 p.
–ISBN 978-0-8213-7440-5



Azerbaijan export catalogue: economy in brief featuring same export opportunities of Azerbaijan. – Baku: Azerbaijan Marketing Society, 2008. – 100 p. – ISBN 978-9952-8122-0-6

Harvey J. Müasir ekonomiks: giriş / J. Harvey, E. Jowsey. – 8-ci nəşr. – Bakı: Kitab Klubu, 2008. – 648 s.
–ISBN 978-9952-8125-0-3



The World Bank annual report 2008: year in review (with CD-ROM). – Washington, DC: World Bank, 2008. – 64 p.
–ISBN 978-0-8213-7675-1





Ihsanoğlu İ. Haqqı. Beynimizin sirləri. – Bakı: Nurlar, 2008. – 127 s. – ISBN 978-9952-439-29-8



Азербайджан: 100 вопросов и ответов. – Баку: Англо-Азербайджанское молодежное общество, 2008. – 200 с.
–ISBN 978-9952-8068-1-6

Paşayev H. Yüksəkliyə doğru: Azərbaycanın Amerika Birləşmiş Ştatlarındakı ilk səfirinin seçilmiş məqalələri. – Bakı: Azərbaycan Marketinq Cəmiyyəti, 2008. – 339 s. – ISBN 978-9952-8122-1-3



Джафарова Д. Оружие племен Карабаха в эпоху поздней бронзы и раннего железа. – Баку: Университет Хазар, 2008. – 256 с.
–ISBN 978-9952-8005-4-8



Hazırlayanı: **Lyudmila SOTOVA**

KHAZAR VIEW

XƏZƏR XƏBƏR

Öz ciddi məzmunu və rəngarəngliyi ilə seçilən
"Xəzər Xəbər" toplusu yenə sizin görüşünüzə gəlib.
"Xəzər Xəbər"də Azərbaycan, rus, ingilis,
türk və başqa dillərdə dərc olunan maraqlı xəbərlər,
ali və orta təhsil haqqında yeniliklər,
poeziya və ədəbiyyat səhifələri, məzəli əhvalatlar,
elmi əsərlər, siyasətə, mədəniyyətə, idmana aid yazılar, qəribə
sevgi macəraları, uşaq yaradıcılığı, maraqlı yarışlar -
müsabiqələr və s. könlünüzcə olacaq.
"Xəzər Xəbər" gənclərin və oxuyan,
düşünən hər kəsin dərgisidir.
"Xəzər Xəbər"i İNTERNET vasitəsilə dünyanın
hər yerində oxuyurlar.
"Xəzər Xəbər"i siz də oxuyun!
"Xəzər Xəbər"ə siz də yazın!
"Xəzər Xəbər"i şəhərimizdəki qəzet-jurnal
köşklərindən ala bilərsiniz.
"Xəzər Xəbər" ayda iki dəfə çıxır.

Ünvan: Bakı şəhəri,
Məhsəti küçəsi, 11.
Əlaqə telefonları: 421-79-16
421-10-93.
E-mail: xazarxabar@khazar.org